# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 oktyabr tarixli 158 nömrəli qərarı ilə təsdiq edilmiş "Yeyinti məhsullarının dövlət gigiyena qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 4 mart tarixli 82-IVQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 aprel tarixli 1424 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 oktyabr tarixli 158 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 1018) ilə təsdiq edilmiş "Yeyinti məhsullarının dövlət gigiyena qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Gigiyenik sertifikatın verilməsinə görə dövlət rüsumu ödənilir.";

1.2. 2.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"Gigiyenik sertifikatın verilməsinə görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.".

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur RASİZADƏ**

Bakı şəhəri, 27 may 2011-ci il
№ 87